# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə).

II Qəbələ Kuboku Futbol oyunları və digər idman tədbirlərinin keçirilməsi də məhz hesabat dövründə baş vermişdir. Eləcə də Qəbələ rayonu ilə Ukrayna Respublikasının Rovno vilayəti arasında regionlararası əməkdaşlıq haqqında anlaşma protokolu imzalanmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Cari ilin ötən dövrü ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə rayonumuzda 212.735 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 5.193 min manat, yaxud 2,5 faiz çox olmuşdur.

Cari ilin 9 ayında keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 1.966 min manat, yaxud 17,6 faiz, kənd təsərrüfatında 1.767 min manat, yaxud 3,9 faiz, tikintidə 273 min manat, yaxud 0,2 faiz, nəqliyyatda 57 min manat, yaxud 2,4 faiz, rabitədə 30 min manat, yaxud 5,1 faiz, ticarətdə 1.100 min manat, yaxud 5,1 faiz artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 2.139 manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 0,8 faiz çox olmuşdur.

Sənaye mallarının istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 71,4 faiz təşkil etmişdir.

9 ay ərzində sənaye müəssisələrində çalışan 751 nəfər işçinin orta aylıq nominal əmək haqqı 366 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 21,1 faiz çox deməkdir.

2003-cü ilin oktyabr ayından bu günədək 11467 yeni iş yeri açılmışdır. Ondan 9419-u daimi iş yeridir. 2013-cü ilin 9 ayı ərzində isə 524 daimi iş yeri açılmışdır.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 128.517 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 127.110 min manat təşkil etmişdir. Əvvəlki illə müqayisədə əsas kapitala yönəlmiş investisiyanın həcmi 1.680 min manat, yaxud 1,3 faiz artmışdır.

Rayonun yerli gəlirləri 2013-cü ilin 9 ayında 6.374,7 min manat proqnoza qarşı 6.434,8 min manat (101 faiz) və ya 60,1 min manat çox, o cümlədən rayonun yerli gəlirlərinə aid olan məbləği 6.265,1 min manat proqnoza qarşı 6.374,7 min manat (102 faiz) və ya 109,6 min manat çox icra olunmuşdur.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.



Azərbaycan hökuməti və Dünya Bankının maliyyə dəstəyi əsasında Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində 1-ci mərhələ üzrə işlər davam etdirilmiş, 2-ci mərhələ üzrə tikinti işlərinə başlanılmışdır.

Qəbələ Telekommunikasiya qovşağı 9 ay ərzində 735 min manat tarif gəliri proqnozuna qarşı 771 min manat gəlir əldə etmiş, proqnoz tapşırığını 104,9 faiz yerinə yetirmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz, yəni 78,5 min manat artıq gəlir əldə edilmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 375 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə isə 828 min kub/metr çay məcrası daş və qumdan təmizlənmiş, 258 kub/metr qabion bəndi vurulmuş, 4.151 kub/metr daş beton bəndi cari təmir edilmişdir.

2013-cü ilin 9 ayı ərzində "Qəbələ Mədəniyyət Mərkəzi", Qaradeyn kəndində inşa edilən şərab zavodu, Böyük Əmili kəndində inşa edilən 1200 başlıq heyvandarlıq kompleksi, Vəndam qəsəbəsində 1200 başlıq heyvandarlıq kompleksi, 1200 yerlik Heydər Əliyev "Konqres Holl", "Karvansaray" oteli, Zaragan kəndində 2 ədəd 5 mərtəbəli, 155 mənzilli yaşayış binaları , Qəbələ-Ağdaş avtomobil yolunun (22 km) yenidən qurulması, Qəbələ—Oğuz avtomobil yolunun əsaslı təmiri, Kiçik Pirəlli kəndində 180 şagird yerlik tam orta məktəb binası obyektlərində tikinti, quraşdırma və təmir işləri başa çatmış, rayonun Nohurqışlaq kəndinə qaz çəkilişi tamamlanmış və qeyd edilən obyektlər istismara qəbul edilərək fəaliyyətə başlamışdır. Bununla yanaşı Qəbələ-Ağdaş yolunun yenidən qurulması çərçivəsində (22 km) yolun abadlaşdırılması, işıqlandırılması, kommunikasiyaların köçürülməsi, "Qəbələ" Futbol Klubunun Futbol Akademiyası və Stadionlar kompleksi, Qəbələ şəhərinin şimal hissəsində inşa edilən Qəbələ-2 Yanğınsöndürmə deposu, DİN-nin N saylı alayı, Dəmiraparançay və Durcaçay hövzələrində sahilbərkitmə işləri, Cipsi, limonad və Şərab zavodu, Qəbələ—Küsnət—Laza avtomobil yolu və Dəmiraparan çayı üzərində 10 aşırımlı, 324 pm uzunluğunda dəmir-beton körpü, Mirzəbəyli—Çuxur Qəbələ—Dizaxlı—Çarxana avtomobil yolunun yenidən qurulması, Bum qəsəbəsində inşa edilən "Stend atıcılığı kompleksi", "Tufandağ" dağ xizək, yay-qış istirahət kompleksi, "Akvapark istirahət kompleksi", "Qolf klub kompleksi" və Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidən qurulması obyektlərində tikinti quraşdırma işləri davam etdirilmişdir.

Hazırda Qəbələ şəhərində 360 şagird yerlik tam orta məktəb, Yengicə kəndində 80 şagird yerlik və Zirik kəndində 220 şagird yerlik ümumi orta məktəb binalarının tikintisinə başlanılmışdır.

Qəbələ şəhərinin Sahil, Həzi Aslanov, Musabəyov və Xalid Qasımov küçələrində, Nic və Bum qəsəbələrində abadlıq işləri davam etdirilməkdədir.

**Hörmətli toplantı iştirakçıları!**

Ötən dövr rayonun təhsil həyatı da uğurlu olmuşdur. 2012/2013-cü dərs ili müvəffəqiyyətlə başa çatmış, müvəffəqiyyət faizi 99,8 faiz, keyfiyyət göstəricisi isə 59,9 faiz olmuşdur. İmtahana buraxılmış 1375 şagirddən 1374 nəfəri müvəffəq qiymətlərlə tam orta təhsilə dair attestat almışdır.

XI siniflərdə buraxılış imtahanlarının nəticələri 69,7 faiz olmuşdur. Bu da respublikada yüksək nəticələrdən biridir.

2012/2013-cü dərs ili 5 məzunumuzun qızıl medal və 2 məzunumuzun fərqlənmə attestatı alması ilə əlamətdar olmuşdur. Orta təhsil müəssisələrini bitirən 1374 nəfər şagirddən 795-nəfəri ali məktəblərə qəbul olunmaq üçün sənəd vermiş, onlardan 496 nəfəri ali məktəbə qəbul edilmişdir. Bu da əvvəlki illə müqayisədə 46 nəfər çoxdur. Ali məktəbə qəbul olunanların 104 nəfəri 500-dən yuxarı, 27 nəfəri isə 600-dən yuxarı bal toplamışdır.

Təbii iqlim şəraiti, mineral bulaqları, gur şəlalələri, iti axan dağ çayları, tarixi keçmişi, "İpək yolu"nun üstündə yerləşməsi Qəbələnin turizm məkanı kimi inkişaf etməsinə stimul verən amillərdəndir. Bu gün Qəbələdə fəaliyyət göstərən 16 otelin 4-ü beşulduzlu, biri dördulduzlu və ikisi üçulduzludur. Həmin otellərin hesabına Qəbələdə bir gündə 1500-dən artıq turisti qəbul etmək imkanı yaranmışdır.

Bütün turizm obyektlərində olan şərait, xidmətin səviyyəsi gələn qonaqları razı salır. Bunun nəticəsidir ki, 2013-cü ilin 9 ayı ərzində Qəbələyə 35640 nəfər turist gəlmişdir.

Görülən işlər, gələcək layihələr deməyə imkan verir ki, Qəbələ çox yaxın zamanda Beynəlxalq Turizm Mərkəzi kimi dünyada tanınan bölgələrdən birinə çevriləcəkdir.

Turizmin Qəbələ rayonunda sürətli inkişafı ixtisaslı kadrlara olan tələbatı da artırmışdır. Bu məqsədlə 2009 cu ildən fəaliyyət göstərən Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində kompüter operatoru, əməliyyatçı mühasib, mehmanxana inzibatçısı, mehmanxana qeydiyyatçısı, ofisiant, barmen-bufetçi, aşpaz ixtisasları üzrə qruplar fəaliyyət göstərir. Hazırda tədris mərkəzində 6 ixtisas üzrə 194 nəfər şagird dövlət hesabına təhsil alır. Bunlardan 94 nəfəri ümumi orta təhsil bazasından, 100 nəfəri isə tam orta təhsil bazasından olan şagirdlərdir.

**Hörmətli toplantı iştirakçıları!**

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında, həmçinin "2008—2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda aqrar sahə üzrə nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi ölkənin aqrar sahəsinin inkişafında həlledici rol oynamışdır.

Aqrar sahəyə dövlət qayğısının daim artması nəticəsində, rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Xüsusilə qeyd etmək lazımdır ki, hörmətli Prezidentimiz cənab İlham Əliyev tərəfindən imzalanmış "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncam kəndli sahibkarlar tərəfindən böyük ruh yüksəkliyi və minnətdarlıqla qarşılanmışdır.

Rayon komissiyası tərəfindən Sərəncamın icrası ilə əlaqədar olaraq 2012-ci ilin sonunda torpaq mülkiyyətçilərinə dövlət büdcəsinin vəsaiti hesabına 760601 manat yardım hesablanmış və həmin vəsait bu ilin I rübündə plastik kartlar vasitəsilə sahiblərinə çatdırılmışdır.Bundan əlavə rayon komissiyası tərəfindən cari ilin iyun ayında rayonun 1961 nəfər torpaq sahibkarına əkin sahələrinin becərilməsinə görə 1.067.674 manat yardım hesablanaraq plastik kartlar vasitəsilə ödənilmişdir.

(Ardı 4-cü səhifədə).